İMİŞLİ: SOSİAL-İQTİSADİ İNKİŞAF HƏR SAHƏDƏ UĞURLAR GƏTİRİR

Ölkəmizin gözəl guşələrindən olan İmişli son illər sürətlə inkişaf edən şəhərlərimizdəndir. Səhərin alatoranlığından boylanan günəş şüaları Arazın və Kür çayının üzərinə düşərək insanın üzünə xoş tərəvətlə gülür, təbiətin gözəl hüsnü bu yerlərə gələnləri valeh edir. Doğma Azərbaycanın bu günkü inkişaf templerini bu gözəl diyarda da hər zaman müşahidə etmək mümkündür. Ölkəmizdə ümummilli lider Heydər Əliyevin başladığı islahatlar burada uğurla həyata keçirilir, genişmiqyaslı infrastruktur layihələri reallaşdırılır, kənd təsərrüfatında və sənayədə möhtəşəm nəticələr əldə edilir, tikinti-abadlıq işləri vüsətini günbəgün artırır. Dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatlar, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yönəldilən tədbirlər həmişə yüksək rəğbətlə qarşılanır.

Beli, son vaxtlar respublika rəhbərliyinin İmişli rayonuna, onun əməksevər əhalisinə göstərdiyi qayğı hamının gözü qarşısındadır.

Rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyevlə görüşümüz isti avqust günlərindən birinə təsadüf etsə də, söhbətimiz baş tutdu. Rayon rəhbəri dedi ki, İmişli rayonu çox şərəfli tarixi yol keçmişdir. Bəcirəvan, Qızıltəpə, Yeddioymaq, Qoşatəpə, Qalayeri, Bəhramtəpə, Əbiştəpə kimi tarixi abidələri ilə məşhur olan, Muğan-Mil düzündə, Kürlə Arazın əhatəsində - mərkəzi Aran zonasında yerləşən, ərazisi 1890 kvadrat kilometrə çatan rayon 8 avqust 1930-cu ildə təşkil olunmuşdur. 1938-ci ilə qədər rayon mərkəzi indiki Qaradonlu kəndində yerləşib. 1944-cü ildə İmişli kəndinə şəhər tipli qəsəbə, 1960-cı ildə şəhər statusu verilmişdir və o, respublikanın gənc şəhərlərindən sayılsa da, çox sürətlə inkişaf etmişdir. Gözəl meydan və küçələri, geniş xiyabanları, istirahət üçün münasib və rahat parklar, eləcə də çoxsaylı sosial, mədəni və məişət obyektləri olan müasir və abad şəhər Araz çayının sahillərində, Mil düzündə yerləşən inzibati rayon mərkəzidir. 1959-cu ildə hazırkı Bəhramtəpə qəsəbəsi ərazisində Araz çayı üzərində o dövr üçün unikal sayılan Bəramtəpə hidroqovşağı inşa olunmuşdur. Bu zaman həmçinin qum-çınqıl karxanaları, dəmir-beton zavodu istifadəyə verilmişdir.

İmişli rayonunda 1 şəhər, Bəhramtəpə və Vətəgə adlı 2 qəsəbə, 48 kənd yaşayış məntəqəsi vardır. Bu yurdun sakinləri qabaqcıl ziyalılar, ədəbiyyat, incəsənət adamları ilə həmişə haqlı olaraq öyünürlər. Bu ildən çıxmış 16 elmlər doktoru, 50-dən çox elmlər namizədi Azərbaycan elminin inkişafına öz töhfələrini verir. 185 nəfər imişlili gənc erməni təcavüzkarları ilə vuruşmalarda şəhid olmuşdur. Şəhərin mərkəzində onların şərəfinə möhtəşəm "Şəhidlər Xiyabanı" yaradılmışdır. Polis baş leytenantı İmanverdi Əliyev ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

İmişlinin təbiəti çox gözəldir. Sakinlər yanın əsrdən çoxdur ki, müalicəvi mineral yeraltı sulardan istifadə edirlər. Rayonun meşələri, çay və göllər heyvanların və köçəri quşların qışlaq yerləridir. Kür çayında nərə balıqlarının və çay balıqlarının yetişdirilməsində ötrü gözəl şərait vardır. Ekoloji tarazlığın qorunması üçün Tuqay meşələrinin bərpası yaxşı perspektivlər vəd edir. Yeri gəlmişkən, deyirlər ki, Səməd Vurğun məşhur "Ceyran" şeirini bu rayona etdiyi səfərlərdən, gördüyü təbiət mənzərələrindən ilham alaraq yazmışdır.

124 min nəfərlik İmişli əhalisi respublikamız ikinci dəfə müstəqilliyə qovuşduqdan sonra daim qurub-yaratmaq əzmi ilə yaşayıb işləyir. Rayonda aqrar-sənaye kompleksinin sürətli inkişafı, genişmiqyaslı quruculuq-abadlıq işləri, sosial proqramlar ardıcıl olaraq həyata keçirilir, insanların daha firavan yaşamasından ötrü ardıcıl tədbirlər görülür.

Son vaxtlar rayonda bütün sahələr intensiv surətdə inkişaf etdirilmiş, tikinti-abadlıq işlərinə xüsusi fikir verilmiş, yaşayış məntəqələri öz simasını yaxşılığa doğru xeyli dəyişmiş, vətəndaşların həyat səviyyəsi yüksəlmişdir. Onu da qeyd etməliyik ki, Vətənimizin və onun bir parçası olan İmişlinin bu günkü nailiyyətləri ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Bu yurdun insanları bütün uğurların qazanılmasını həm də Prezident İlham Əliyevin doğma xalqının xoşbəxt həyatı üçün apardığı gərgin işi ilə bağlayırlar. Bu da səbəbsiz deyil. Prezident İlham Əliyev İmişlidə dəfələrlə olmuş, əsaslı təmir edilmiş mərkəzi xəstəxananın, yeniden qurulmuş Heydər Əliyev parkının, Heydər Əliyev Mərkəzinin, "Araz" Damazlıq-qusçuluq MMC-nin, 50 min tonluq taxıl anbarının, Şahmat məktəbinin, su anbarları kompleksinin açılış mərasimlərində iştirak etmişdir. Ölkə başçısı sakinlərlə söhbətində demişdir ki, "İmişli rayonunun inkişafı üçün çox böyük, tarixi işlər görülmüşdür. İmişlini tanımaq mümkün deyil. Doğrudan da, tarixi dəyişikliklər baş vermişdir. Bu, sizin ümumi zəhmətinizin bəhrəsidir. Bir sözlə, istək, siyasi iradə və öz xalqına qayğı olan yerdə hər şey etmək mümkündür".

Beli, tamamile doğru fikirdir: xalqının tərəqqisinə ürəkdən can yandıranda dağı dağ üstünə qoymaq olar.

Ötən illər ərzində kənd təsərrüfatı və sənaye məhsulları istehsalının və emalının inkişaf etdirilməsi, yeni avtomobil yollarının əsaslı təmiri, abadlıq və yenidənqurma əsas vəzifələr olmuşdur. Bundan əlavə, İmişli şəhərinin, kəndlərin su təchizatının yaxşılaşdırılması və kanalizasiya sisteminin yaradılması, torpaqların su təminatının yaxşılaşdırılması məqsədilə meliorasiya-irriqasiya tədbirlərinin həyata keçirilməsi, Araz çayının məcrasının düzləndirilməsi işlərinin davam etdirilməsi əsas fəaliyyət istiqamətləri kimi qiymətləndirilir. Həmçinin səhiyyə müəssisələrinin təmiri, yenilərinin tikintisi və avadanlıqlarla təchiz olunması, mədəniyyət ocaqlarının əsaslı təmiri, yenidən qurulması və tikintisi, idman-sağlamlıq obyektlərinin inşası, məktəblərin əsaslı təmiri, əlavə sinif otaqlarının və yeni məktəb binalarının tikilməsi sahələrində də xeyli tədbir həyata keçirilmişdir.

Ötən il iqtisadiyyatın əsas sahələri üzrə 380.701 milyon manatlıq məhsul istehsal edilmiş və ya xidmət göstərilmişdi. Bunun 43,3 faizi sənayenin, 26,6 faizi kənd təsərrüfatının, 15,4 faizi tikintinin, 12,4 faizi ticarət və iaşənin, qalanı nəqliyyat, rabitə müəssisələrinin payına düşür. Rayon üzrə ümumdaxili məhsul istehsalı üzrə 2013-cü ildəkinə nisbətən artım iqtisadiyyatın bütün sahələrində qeydə alınmışdır.

2015-ci ilin birinci yarısında isə ümumi məhsul istehsalının həcmi 171 milyon manat olmuşdur ki, bu da 2014-cü ildəkinə nisbətən çoxdur. Ümumi məhsulun 29,2 faizi sənayenin, 38,1 faizi kənd təsərrüfatının, 11,9 faizi tikintinin, 18,4 faizi ticarət və iaşənin, qalanı rabitə, nəqliyyat və digər xidmət sahələrinin payına düşür.

İmişli şəhəri gündən-günə abadlaşır, öz simasını dəyişir, tikinti-abadlıq işləri geniş miqyas alır. Rayon rəhbərliyinin, yerli icra nümayəndəliklərinin və bələdiyyələrin fəallığı, vətəndaşların səyləri sayəsində son vaxtlar İmişli şəhərinin siması xeyli dəyişilmiş, burada bir sıra yeni istehsal və xidmət obyektləri tikilib istifadəyə verilmiş, təmizlik və abadlıq işləri görülmüşdür. Rayon mərkəzinin memarlığı infrastruktur baxımından regionda ən görkəmli və diqqətəlayiq memarlıq üslublarından biridir. H.Əliyev adına parkın yaxınlığında möhtəşəm binalar - Heydər Əliyev muzeyi, Gənclər Mərkəzi, müasir otel inşa olunub. Ötən illər şəhər memarlığının yaradıcı tərzdə dəyişilməsi, yeni obyektlərin açılışı ilə zəngin olmuşdur. Son illər ərzində Kəllə qənd, Qarışıq yem, Bitki yağları, Spirt emalı, Çuğundur yem zavodları, Bəhramtəpə qəsəbəsində 50 min tonluq taxıl anbarı, Qaraqüvəndikli kəndində damazlıq-quşçuluq kompleksi, Ölcələr və Cəfərli kəndlərində orta məktəb, Məzrəli kəndində 40 yerlik uşaq bağçasının binaları tikilib istifadəyə verilmişdir. Şəhərdəki 1, 6 və 8 saylı, Xəlfəli, Hacırüstəmli, Məzrəli, Qaraqaşlı kənd məktəblərinin binaları təmir olunmuşdur.

Quruculuq və abadlıq işlərinə cari ildə xüsusi diqqət yetirilir. Bu görüntünü rayonun bütün yaşayış məntəqələrində müşahidə etmək olar. İlin 6 ayında sahəyə 23,5 milyon manat vəsait yönəldilmişdir. Şəhərin küçələrində təmir işləri görülmüş, sakinlərin və nəqliyyatın rahat gediş-gəlişi üçün əlverişli şərait yaradılmışdır. H.Əliyev, T.İsmayılov, M.Əsədov küçələrində yerləşən ictimai yaşayış binalarının ərazilərinə asfalt örtüyü salınmışdır. "Şəhidlər Xiyabanı"nda əsaslı təmir işləri aparılmış, milli ənənələrə cavab verən məzarlar, sinə daşları qurulmuşdur. İçməli su ilə təchizata xüsusi fikir verilmiş, kanalizasiya xətləri sahmana salınmışdır. Hazırda Qarabağ əlilləridən ötrü 54 mənzilli yaşayış, Kənd Təsərrüfatı İdarəsinin binalarında tikinti işləri sürətlə davam etdirilir. Şəhərdəki bir sıra obyektlər əsaslı surətdə təmir olunur, yenidənqurma işləri aparılır, ərazidə müasir işıqlandırma sistemləri, fəvvarələr qurulub, plitələr düzülüb. İstisnasız yararsız binalar sökülərək onların yerində müasir tələblərə cavab verən obyektlər tikilir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüslərinə cavab olaraq küçələrdə və meydanlarda, yolların kənarlarında və həyətlərdə bəzək və meyvə ağaclarının, gül kollarının əkilməsi kampaniyaları uğurla nəticələnmişdir.

Yeni yolların çəkilişinə və istifadədə olan yolların təmirinə, infrastrukturun genişləndirilməsinə göstərilən dövlət qayğısı rayonun hər bir guşəsində diqqəti cəlb edir. Prezident İlham Əliyevin yaxından dəstəyi sayəsində bu sahədə işlərin sürəti xeyli artmışdır. Son vaxtlar İmişliyə giriş, İmişli-Mirili-Qaravəlli, Hacıqabul-Bəhramtəpə-Mincivan avtomobil yollarında xeyli təmir işləri aparılmışdır. Sarıxanlı-Boşqalılar, Səfərli-Əliqulular, Xoşqobanlı-Murğuzalılı, Xəlfəli, Qulubəyli, Qızılkənd, Aranlı kəndlərində, yolların təmiri sahəsində həyata keçirilmiş tədbirlər vətəndaşların üreyincə olmuşdur. Hazırda Hacıqabul-Bəhramtəpə, İmişli-Biləsuvar avtomobil yollarında, rayonun daxilində yolların təmiri sahəsində işlər davam etdirilir. İlboyu yolların üstündə olan körpələrə də yüksək səviyyədə xidmət göstərilmiş, nəqliyyatın və əhalinin bu körpələrdən rahat istifadəsi və hərəkətin təhlükəsizliyindən ötrü tam təminat yaradılmışdır. İmişlidə fəaliyyət göstərən və artıq xeyli müsbət göstəricilərə imza atmış "İlkin-MM" MMC-nin işgüzar kollektivi yol tikintisi işlərində öncül mövqeyi ilə fərqlənir. Burada görülən işlərə nəzər yetirdikcə adamın ürəyi açılır, yolçəkənlərin fəaliyyətinə "əhsən" deyirsən.



İmişlinin sənaye potensialı son illərdə apanlan uğurlu dövlət siyasəti ilə bağlıdır. Rayonda fəaliyyət göstərən Şəkər İstehsalat Birliyinin Kəllə qənd zavodu, Qarışıq yem, Bitki yağları, Spirt emalı, Çuğundur yem zavodları, "Araz" damazlıq-qusçuluq MMC istehsalın önündə gedirlər. Bütün sənaye məhsullarının 86,7 faizi qeyri-dövlət sektorunda istehsal edilmişdir. Muradxanlı neft mədəni 8860 ton neft hasil etmişdir. Ərazidə yeni qum-çınqıl karxanaları yaradılmış, asfalt, doğranmış çınqıl istehsalı artmışdır. Hazırda tikinti-quraşdırma obyektlərinin yerli materiallara olan tələbatı tamamilə ödənilir.

Rayonun torpaqlarının 114 min hektarı əkinə yararlı, olduqca bərəkətlidir, bütün ərazidə məhsuldarlığı artırmaqdan ötrü münsibt şərait mövcuddur. Pambıqçılıq, taxılçılıq və heyvandarlıq insanların əsas məşğuliyyət sahələridir. Bütün torpaq mülkiyyətçiləri, adlı-sanlı fermerlər çox əməksevər insanlardır. Onlar torpaqların qədrini bilir, onun nemətlərindən yetərincə faydalanırlar.

Hər il şəkər çuğunduru ilə məşğul olan yerli fermerlərin sayı artır, bu faydalı tərəvəz 6 min hektardan çox ərazidə yetişdirilir. Şəkər çuğunduru yığımı da artır ki, bu da həm fermerlərin, həm də Şəkər zavodunun gəlirlərinin artmasına müsbət təsir edir. Sovet dövründə pambıqçılıq sahəsində olduğu kimi, bu gün şəkər çuğunduru sahəsində əkin mədəniyyətinin yüksəldilməsi, habelə şəkər və şəkər tozunun istehsalı üzrə apancı texnologiyalar poliqonuna çevrilmişdir.

Heyvandarlıq və quşçuluğun inkişafı təmin edilmiş, rayon üzrə mal-qaranın ümumi sayı 91995 başa, qoyunların sayı 247619 başa, quşların sayı 1 milyon 326 min başa çatdırılmış, əvvəlki illə müqayisədə iribuynuzlu mal-qara 1041 başa, qoyunlar 4703 başa, quşlar isə 49458 başa çoxalmışdır. Ət istehsalı 6352 ton, süd istehsalı 24548 ton, yun istehsalı 314 ton, yumurta istehsalı 41887 min ədəd olmuş, bütün növlər üzrə əvvəlki ilin hədləri keçilmişdir.

Ölkə başçısının xüsusi sərancamı ilə əkin və becərmə işlərini həyata keçirmək üçün ayrılan vəsaitlər kənd əməkçilərinin işə münasibətini xeyli yüksəltmiş, ruh yüksəkliyini artırmışdır. Biçin mövsümündə 19664 ton arpa, 42595 ton buğda istehsal edilmişdir ki, bu, rayon əhalisinin daxili tələbatına uyğundur. Fermerlər tərəfindən xeyli qarğıdalı, bostan məhsulları, tərəvəz, kartof istehsal olunmuşdur.

Əhalini ilin bütün fəsillərində təzə tərəvəz məhsulları ilə təmin etmək məqsədilə 10 hektarlıq ərazidə yeni istixanaların inşası davam etdirilir, taxılçılığın inkişaf etdirilməsi, bu sahədə yeni iş yerlərinin yaradılması məqsədilə dövlət fondu torpaqlarından 4 min hektar əkin sahəsi ayrılmış, "MKT" MMC-yə 3813 hektar sahə verilmişdir.

Toxumçuluq təsərrüfatları aqrar sahənin yüksəldilməsi sahəsində öz işlərini yeni tələblər səviyyəsində qurmağa çalışırlar. Ötən il fermerlər 2500 tondan çox yüksək reproduksiyalı taxıl toxumları tədarük edərək İmişlinin, həmçinin qonşu Beyləqan, Ağcabədi rayonlarının təsərrüfatlarına satmışlar. Əsasən "Əzəmətli-95", "Qobustan", "Aran", "Qarabağ-22", "Bərəkətli-95", "Cəlilabad-19" taxıl sortları artırılır və inkişaf etdirilir.

Əkinlərin məhsuldarlığını artırmaq məqsədilə suvarma sistemlərinin sahmana salınmasına diqqət artırılmışdır. Dövlət Proqramına uyğun Bəhramtəpə hidroqovşağında bərpa işləri davam etdirilmiş, təqribən 600 min kub metr həcmdə torpaqqazma və hamarlama işləri apanılmışdır. Sudan istifadə birliklərinin inkişafına dəstək layihəsi çərçivəsində Muradxanlı və Ağammədli kəndləri ərazisindəki suvarma və drenaj kanallarında smeta dəyəri 2018 min manat olan təmir-bərpa işləri başa çatdırılmışdır. Bu il təqribən 233 min kub metr həcmdə torpaqqazma və hamarlama işləri apanılmış, suvarma kanallarında və kollektorlarda 280 kilometrdən çox məsafədə tildəntəmizləmə işləri görülmüşdür. İlin birinci yarısında 78 hidrotexniki qurğu, 17 hidropost, 10 kilometr nov kanalları, 4 kilometr beton kanal təmir edilmişdir. Sudan istifadə birliklərinin inkişafına dəstək layihəsi çərçivəsində bir sıra kəndlərdəki suvarma və drenaj kanallarında təmir-bərpa işləri başa çatdırılmışdır. Kür və Araz çaylarında sahilbərkitmə, torpaqbərkitmə və qayakəsmə işləri görülmüş, təbii fəlakətlərə qarşı ciddi profilaktiki tədbirlər həyata keçirilmişdir.

İmişlidə Aqroservis xidmətləri özünü çoxdan doğrultmuş, torpaq üzərində alın təri tökən kənd sakinlərinin ən yaxın köməkçisinə çevrilmişdir. Hər il fermerlərin sifarişi ilə taxıl və digər kənd təsərrüfatı məhsullarının əkilməsində xidmətlər göstərilmiş, 29 ərazi nümayəndəliyini əhatə edən yaşayış məntəqələrində çalışan torpaq mülkiyyətçiləri ilə müqavilələr tərtib olunmuş, onlara 209 müxtəlif markalı texnika ilə 106 min manatlıq iş görülmüşdür. Müəssisə tərəfindən torpaq mülkiyyətçiləri güzəştli şərtlərlə toxumla və mineral gübrələrlə təmin olunurlar.

Bütün sahələrdə sahibkarlığın inkişaf etdirilməsi rayon icra hakimiyyətinin diqqət mərkəzində durmuş və bunun üçün hər cür şərait yaradılmışdır. Başqa sözlə, bütün işlərin görülməsində özəl bölmə apancı rol oynayır ki, bu da iş adamlarının fəaliyyətinə münbit şəraitin yaradılmasının nəticəsidir. Məhsul buraxılışında qeyri-dövlət sektorunun payı 91,8 faiz təşkil etmişdir. Sahibkarlığın inkişafına maliyyə yardımı göstərmək məqsədilə fiziki və hüquqi şəxslərə kreditlər verilməsi davam etdirilmişdir. Fermerlər tərəfindən paytaxt Bakı şəhərinin bazarlarına məhsul çıxarılması müntəzəm olaraq davam etdirilmiş, gəlirlərin mühüm hissəsi bu sahədən əldə edilmişdir. Onlarca kiçik sahibkarlıq obyektləri tikilmiş, qum-çınqıl karxanaları, mebel, qapı-pəncərə sexları, ticarət və xidmət obyektləri fəaliyyətə başlamışdır. Bu obyektlərdə yüzlərcə yeni iş yeri açılmışdır.

Rayonun yaşayış məntəqələrinin elektrik enerjisi, təbii qaz ilə təminatının yaxşılaşdırılması məqsədilə xeyli iş görülmüşdür. Bəhramtəpə, Çahar, Gövhərli yaşayış məntəqələrində SMART tipli sayğacların quraşdırılması üçün yeni transformatorlar qoyulmuş və kabel-naqil xətləri çəkilmişdir. Bu il daha 22 kənddə SİP kabelləri çəkiləcəkdir. İlin əvvəlindən 235 abonentə təbii qaz verilmiş, beləliklə 10197 abonentin mavi yanacaqdan istifadəsi təmin olunmuşdur. Bir sıra sənaye obyektlərinin, yeni ictimai binaların qazlaşdırılması davam etdirilir, ilin sonundakı yüzlərlə abonentə təbii yanacaq veriləcək.

Son iller rayonda əhaliyə rabitə və nəqliyyat xidmətlərinin yaxşılaşdırılması diqqəti cəlb edir. Ötən yanım ildə 417 min manatlıq rabitə xidməti göstərilmiş, mərkəzi ATS-də rekonstruksiya işləri apanılmış, rayonun rabitə sistemi tamamilə elektronlaşdırılmış, 126 abunəçiyə yeni telefon xətti çəkilmişdir. 32 portallıq genişzolaqlı internet avadanlığı quraşdırılmış, internet istifadəçilərinin sayı 3 min-ə çatmışdır. Qaradonlu, Cəfərli, Qaraqüvəndikli yaşayış məntəqələrində də internet avadanlıqları quraşdırılmış, telefon stansiyalarının nömrə tutumları artırılmışdır. Əhaliyə və müəssisələrə fiziki şəxslər tərəfindən 3,8 milyon manat məbləğində nəqliyyat xidməti göstərilmişdir ki, bu da ötən ildəkindən 5,9 faiz artıqdır.

Məlum olduğu kimi, regional inkişafa dair Dövlət proqramları əsasən sosialyönümlüdür və təbidir ki, əhalinin sosial müdafiəsi həmişə olduğu kimi yenə də prioritet məsələdir. Son vaxtlar əməkhaqlarının və pensiyaların həcminin artırılması, yaşayış meyanının çoxaldılması, təhsil, səhiyyə, mədəniyyət və digər xidmət sahələrində görülən tədbirlər vətəndaşların rifah-halının yüksəldilməsinə yönəldilmişdir. Pensiyaçılara, sosial müavinat alan vətəndaşlara, ünvanlı sosial yardım alan ailələrə nümunəvi xidmət göstərilir. Dövlətin, şəxsən ölkə başçısının diqqəti sayəsində ehtiyacı olan vətəndaşlara pul kompensasiyaları ödənilmişdir. Rayonda aztəminatlı ailələr, Azərbaycanın Milli Qəhrəmanları, əmək veteranları, Böyük Vətən və Qarabağ müharibələrinin iştirakçıları, 20 Yanvar şəhidlərinin ailələri də hərtərəfli qayğı ilə əhatə olunmuş, onlara müxtəlif mebləğlərdə müavinətlər ödənilmişdir. Yüzlərlə tənha və kimsəsiz adamlara, xəstələrə öz evlərində xidmət göstərilir, onlara əlamətdar günlərdə və milli bayramlarda sovqatlar verilir. Ehtiyacı olan insanlar müalicə almaq üçün respublikanın sanatoriya və pansionatlarına yollayış almışlar ki, onların da əksəriyyəti əlilləridir. Rayonda məskunlaşmış 55 min nəfərdən ibarət qaçqın və məcburi köçkün ailələri də sosial yardımlarla təmin olunmuşlar.

Təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin işinin təkmilləşdirilməsi, onların maddi-texniki bazalarının möhkəmləndirilməsi, şəbəkələrinin genişləndirilməsi, ixtisaslı kadrlarla təminatının yaxşılaşdırılması istiqamətində son illər həyata keçirilən tədbirlər nəticəsində bu müəssisələrin əhaliyə göstərdikləri xidmətlərin səviyyəsi yüksəlmişdir.

Təhsilin səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi məqsədilə mühüm tədbirlər görülür. Burada 63 ümumtəhsil məktəbi fəaliyyət göstərir, bu məktəblərdə 15223 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 1473 müəllim məşğul olur. Həmişə olduğu kimi, 2014-2015-ci dərs ilində də tədrisin müasir tələblər səviyyəsində qurulmasını və keyfiyyətini yaxşılaşdırmaq, təlim-tərbiyə işlərinin vəziyyətini öyrənmək üçün monitorinq, treninq və reydlər təşkil olunmuş, aşkar edilmiş nöqsanları aradan qaldırmaqdan ötrü təsirli tədbirlər görülmüşdür. Nəticədə buraxılış imtahanlarında yaxşı göstəricilər qazanılmışdır. Məktəblərin texniki təchizatına diqqət artırılmış, ümumtəhsil ocaqlarına kifayət qədər şagird partası, stol və stul, kompüter avadanlıqları, digər müasir tədris vasitələri verilmişdir.

Səhiyyə şəbəkəsinin kollektivi də ümumi axından heç vaxt geri qalmır, əhaliyə tibbi xidməti yaxşılaşdırmaq sahəsində müveyyən etdiyi layihələrin əzmlə həyata keçirilməsinə öz töhfəsini verir. Tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında səlbedici cəhətlər çoxdur. 6 xəstəxanada, 29 tibb məntəqəsində, 12 həkim məntəqəsində, 1 poliklinikada və digər səhiyyə ocaqlarında 108 həkim, 472 orta tibb işçisi insanların sağlamlığı keşiyində ayıqsayıq dayanmışdır. Müalicə ocaqlarında çarpayıların sayı 235-dir. Prezident İlham Əliyevin açılışında iştirak etdiyi 136 çarpayılıq mərkəzi xəstəxanada müasir ultrasəs, rentgen, dializ, digər cihazlar quraşdırılmışdır. Yoluxucu xəstəliklərə qarşı mübarizə üçün xüsusi həkim briqadaları yaradılmışdır. Cərrahiyyə, reanimasiya, mama-ginekologiya, infeksion şöbələrdə pasiyentlər üçün nümunəvi şərait yaradılmışdır. Dializ şöbəsində hər gün 30 nəfər xəstə qəbul olunur. Ana və uşaqların mühafizəsinə diqqət xeyli artırılmışdır, dünyaya yeni göz açmış uşaqların hamısı təqvim əsasında peyvəndlərə cəlb olunmuşlar. Tibb müəssisələrində xeyli təmir-bərpa işləri görülmüşdür.

Məlumdur ki, bu ilin əvvəlindən respublikanın hər yerində vətəndaşların icbari tibbi müayinəsi keçirilmişdir. Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə keçirilən bu tədbirin yüksək səviyyədə təşkil edilməsi üçün rayonda xeyli iş görülmüşdür. İnsanlar ölkə başçısının humanist qayğı və diqqətinə görə ona öz təşəkkürlərini bildirirlər. Humanitar aksiyanı uğurla keçirmək üçün 6 həkim briqadası yaradılmış, müayinələr 11 stasionarda apanılmış, ehtiyacı olanlara əlavə laboratoriya təhlillərinə olmaq imkanı yaradılmışdır. Hesablamalara görə rayonda 99 min nəfər tibbi müayinədən keçmişdir. Gələcəkdə Kür və Araz çaylarının mənzərəli sahillərində sanatoriya-kurort kompleksi yaratmaq kimi iri layihənin həyata keçirilməsi nəzərdə tutulur.

Mədəniyyət və turizm sahəsində görülən tədbirlərin miqyası da getdikcə genişləndirilir, 1 mədəniyyət sarayı, 7 kənd mədəniyyət evi, mərkəzi kitabxana, 46 kənd kitabxana filialı, 26 klub müəssisəsi, muzey, 2 musiqi məktəbi, mədəniyyət və istirahət parkları, rəsm qalereyası sakinlərə nümunəvi xidmət göstərir. Mərkəzi kitabxanada "Kitabxana-bibliografiya proseslərinin avtomatlaşdırılması" və "İnformasiya-resurs" şöbələri yaradılmışdır. Bəhramtəpə qəsəbə, Qaralar, Boşqalılar, Muradalılı, Yalavac kənd kitabxanaları "Ən yaxşı kitabxana" və "Ən yaxşı kitabxanaçı" müsabiqələrində yüksək yerlər tutmuşlar. Mədəniyyət müəssisələrində xeyli təmir işləri aparılmışdır.

Gənclərin hərbi vətənpərvərlik tərbiyəsi, asude vaxtlarının təşkili, onların idmana cəlb edilməsi sahəsində ardıcıl və məqsədyönlü iş apanılır. 132 idman quruşu, 3 bədən tərbiyəsi və sağlamlıq mərkəzi, 8500 yerlik stadion, olimpiya idman kompleksi uşaqların və yeniyetmələrin, cavanların ixtiyarındadır. Tədris müəssisələrində cənc yetirmələrin "Cəsurlar" və "Şahin" hərbi-idman oyunlarında uğurla çıxış edirlər.

Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev söhbətimizin sonunda onu da qeyd etdi ki, ulu öndərimiz vaxtilə demişdi: "Heytımın son dəqiqəsinədək xalqıma xidmət edəcəyəm və ömrümün bundan sonrakı illərini də xalqıma bəxş edirəm". Bu hikmətin mənasını zaman keçdikcə daha açıq-aydın, bütün dərinliyi ilə dərk edirik və hər birimiz öz sahəmizdə fəaliyyətimizi məhz bu ruhda qurmağa çalışmalıyıq. Bu, xalqımızın gələcək firavan həyatını təmin edən ən düzgün istiqamətdir. Bizim borcumuz Heydər Əliyev ideyalarını bundan sonra da yaşatmaq, həyəqətlə inkişaf etdirməkdən ibarətdir. Bu mənada 2015-ci il, fikrimcə əvvəlkilərdən daha uğurlu olacaq. Rayonda qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirilməsi deməyə əsas verir ki, İmişli sakinləri həmişə olduğu kimi, dövlət tapşırqlarını həyata keçirilməsində yenə də öz sözlərini deyəcəklər. Qeyd etməliyəm ki, onlar ölkə başçısının irəli sürdüyü vəzifələrin mahiyyətini gördüyü vəzifələrin mahiyyətini gözəl anlayırlar, yaxşı başa düşürlər ki, görülmüş işlərlə əsla kifayətlənmək olmaz, gələcək əməmətli layihələrin həyata keçirilməsi müstəqil ölkəmizin çiçəklənməsi yolunda əsas məsələdir. Ona görə də burada bütün səylər həmişə olduğu kimi, sosial və mədəni quruculuq tədbirlərinin intensivləşdirilməsinə yönəldilir.

Beli, son vaxtlar respublika rəhbərliyinin İmişli rayonuna, onun əməksevər əhalisinə göstərdiyi qayğı hamının gözü qarşısındadır. Sakinlər ölkəmizin inkişafına, əhalinin sosial yaşayış səviyyəsinin yüksəldilməsinə yol açan tədbirləri bəyənirlər və bu tədbirləri daha intensiv surətdə davam etdirmək, öz üzərlərinə düşən vəzifələrin öhdəsindən layəqətlə gəlməkdən ötrü var qüvvələrini səfərbər etmişlər. İmişlilərin bu əhval-ruhiyyəsi gələcək illəri də uğurlu göstəricilərlə başa vurmağa təminat yaradır. Rayonda apanlan quruculuq işləri bir daha göstərir ki, qarşıda duran bütün vəzifələr layiqincə yerinə yetiriləcəkdir.

Sabir MUSTAFAYEV,
"Respublika".